http://az.trend.az/azerbaijan/society/1790028.html

*CƏMİYYƏT*

# Türkiyənin dövlət orqanlarının əməkdaşları Azərbaycanda səfərdədir

30 NOYABR 2010, 17:43

Azərbaycan, Bakı, 30 noyabr /Trend, müxbir K.Zərbalıyeva/
Məqalə müəllifi ilə əlaqə ünvanı: news@trend.az

Türkiyənin dövlət orqanlarının əməkdaşları Azərbaycanda səfərdədir. Türkiyənin Təhsil, Səhiyyə, Rabitə, Energetika və Təbii Sərvətlər nazirlikləri, Dövlət Kadrlar İdarəsi, Xarici Ticarət Komitəsi, Türkiyə və Yaxın Şərq Dövlət İdarəsi İnstitutu, Gömrük Komitəsi və Şəhərsalma İdarəsinin rəhbər işçilərindən ibarət 15 nəfərlik nümayəndə heyətinə Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın təşkilatçılığı ilə Azərbaycanın iqtisadi siyasəti təqdim olunub.

Təqdimatda **İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun direktor müavini Fəxri Həsənov** Azərbaycanın 1989-cu ildən sonrakı iqtisadi durumu, iqtisadiyyatın inkişaf mərhələləri, həyata keçirilən iqtisadi proqramların icra vəziyyəti, dünya iqtisadiyyatına inteqrasiyası barədə geniş məlumat verib.

Dövlət Komissiyasının əməkdaşı Rauf Məcidbəyli bildirib ki, noyabrın 28-dən başlayan səfər 21 dekabr 2009-cu ildə Bakıda imzalanan "Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya və Türkiyə Respublikasının Dövlət Kadrlar İdarəsi arasında 2010-2011-ci illər üçün əməkdaşlıq üzrə Fəaliyyət Proqramı" çərçivəsində reallaşıb.

Dekabrın 4-dək davam edəcək səfər çərçivəsində türkiyəli qonaqlar Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın sədri Bəhram Xəlilovla görüşüblər.

Xəlilov iki ölkə arasında dövlət qulluğu sahəsində əməkdaşlığın yüksək səviyyədə olduğunu, bu səfərlərin əlaqələrin daha da inkişafına xidmət edəcəyini vurğulayıb.

Fəaliyyət Proqramı çərçivəsində Azərbaycanın müvafiq dövlət qurumlarının eyni sayda nümayəndə heyətinin gələn ilin birinci rübündə Türkiyəyə qarşılıqlı səfəri planlaşdırılır.